ƏLİAĞA CƏFƏRLİ

# «KOROĞLU» EPOSUNUN QƏDİM SÜJETLƏRİ

Azərbaycan şifahi xalq ədəbiyyatında, eləcə də dastan yaradıcılığında Koroğlu mövzusu ən qədim süjetlərdən biridir. Xalqımızın şanlı qəhrəmanlıq səhifəsi kimi bu dastan xalq yaradıcılığına tarixdən əvvəlki dövrlərdə daxil olmuşdur. Ola bilər ki, ən qədim dövrlə «Koroğlu» eposunun adı belə yox, oxşar adda iz qoymuşdur. Lakin tarixdən sonrakı yaradıcılıq prosesində «Koroğlu eposunun ilk mifoloji qolları təşəkkül tapmağa başlamışdır.

Azərbaycanda «Koroğlu eposu çox geniş yayılmışdır. XIX əsrdən başlayaraq «Koroğlu» eposu bir çox tədqiqatçıların diqqətini cəlb etmişdir. Xüsusilə Azərbaycana gəlmiş səyyahlar, tədqiqatçılar və başqaları bu eposa maraq göstərmiş, onu yerli ifaçılardan toplamış və nəşrinə nail olmuşlar. Müxtəlif illərdə bu eposun ilk variantları rus mətbuatında işıq üzü görmüş, Londonda, Parisdə kitab şəklində çap olunmuşdur. Bu işdə A.Xodzkonun, S.Pennin, J.Sandın və başqalarının marağını qeyd etməmək olmaz. Beləliklə müxtəlif illərdə «Koroğlu» eposunun müxtəlif variantları toplanmışdır. 1913-cü ildə Rza Zaki Türkiyə variantı əsasında «Koroğlu» eposunu nəşr etdirmiş, XX əsrin 20-ci illərində və daha sonra Vəli Xuluflunun, Hümmət Əlizadənin, Abbas Rəcəblinin, daha sonralar M.H.Təhmasibin, A.Nəbiyevin, D.Əliyevanın və başqalarının fəaliyyəti nəticəsində Koroğluşünaslığa yeni-yeni töhfələr verilmişdir. Bu iş Cənubi Azərbaycanda da davam etdirilmiş, Cənubi Azərbaycan koroğluxanlarının ifasında «Koroğlu» eposu dəfələrlə toplanılıb çap olunmuşdur.

«Koroğlu» eposunun variantları içərisində Cənubi Azərbaycanda yayılmış, Əli Kamali tərəfindən Aşıq Əliəkbərdən toplanmış «Koroğlu»nu və bir də «Koroğlu»nun Tiflis-Təbriz variantını qeyd etmək olar. Hər iki variantda Koroğlu Cəlali Ko-

roğlu adı ilə verilmişdir. Təbriz variantının ön sözündə bu dastanın XVII əsrdə qələmə alındığı bildirilir (2, s.6).

Təbriz variantı dövrün tarixi hadisələrini dah dərindən əks etdirir. Bu variantda Osmanlı Türkbyəsinə qarşı çevrilən Qara Yazıçıoğlu üsyanı, Cəlali üsyanı, Təbrizdəki qəssabların üsyanı öz izlərini saxlayır. Təbriz variantını 28 məclisdən, Əli Kamalinin topladığı «Koroğlu» isə 8 əsas məclisdən və bir neçə əlavədən ibarətdir.

Epik yaradıcılıqda dastan formalaşmağa başlayanda bu proses nəğmə üslubunda yayılır. Adətən belə nəğmələr qəhrəmanlıq səhifələri adı ilə şifahi yaradıcılıqda tanınmağa başlayır və tnosun qəhrəmanlıq tarixini özündə əks etdirir. Biz ən qədim dastanlarımızın yaranma formasına nəzər salsaq görərik ki, bu qəhrəmanlıq nəğmələri hansısa etnosun dəyərlərini, qəhrəmanlıq keçmişini yaşadır. Təbii ki, belə bir yaradıcılıq prosesini «Koroğlu» eposu da keçmişdir. Bu baxımdan epik nəğmə süjetləri bu gün adı bizə bəlli olmayan qədim bir etnosun hətta tarixdən əvvəlki dönəmdə mifoloji keçmişini, sonra ozan yaradıcılığında tarixi keçmişini yaşadır, daha sonrakı yaradıcılıq prosesində isə aşıq ifasında cilalanmaqdadır.

Qeyd etdiyimiz kimi, «Koroğlu» eposunun əsasında qədim əsatiri görüşlər, qəhrəmanlıq əxlaqını əks etdirən ilk süjetlər durur. Bu süjetlərin içərisində daha bir neçə əlavə süjetləri də göstərmək olar ki, bunlara aşağıdakılar daxildir:

1. Əski törəniş, birgəyaşayış və ibtidai dövlətçilik ənənələrini əks etdirən süjetlər;

2. Qəbilə-tayfa dövrü məişət həyatını, tayfadaxili və tayfaxarici ziddiyyətləri əks etdirən süjetlər;

3. Tarixi hadisələr və tarixi şəxsiyyətlərin adı ilə səsləşən süjetlər;

4. Adi qəhrəmanlıq hadisələri ilə bağlı süjetlər (5, s.350).

Göstərilən bəndlərin hansının «Koroğlu» eposuna aid olduğunu göstərməyə çalışaq.

1. «Koroğlu» eposu əsatiri görüşlərlə zəngindir, ən qədim qəhrəmanlıq eposları ilə (kosmoqonik eposlarla) səsləşir.

2. «Koroğlu» eposunda Çənlibelin timsalında qədim dövlətçilik və birgəyaşayış ənənələri qorunur.
3. «Koroğlu» eposunda təkə tayfası timsalında tayfadaxili və tayfaxarici münasibətlər, ibtidai məişət həyatı əks olunur.
4. «Koroğlu» eposunda tarixi hadisələr, kəndli üsyanları və müəyyən tarixi şəxsiyyətlərlə bağlı süjetlərə rast gəlinir.
5. «Koroğlu» eposunun qollarında adi qəhrəmanlıq hadisələrinə də rast gəlinir.

«Koroğlu» eposunun da ilkin variantı qam-şaman görüşləri ilə bağlıdır. Bunu Koroğlunun tarixi şəxisiyyətində qam-şaman görüşlərini əks etdirən müəyyən yaxınlıqların olduğunu görürük. Koroğlunun səciyyəsini izləyəndə Koroğlunun şamançılığı ilə alplığı arasında bir körpü də görünür. Əvvəlki Koroğlu şaman xislətli Alı kişinin davamçısı kimi bu ənənələri daşımalıdır. «Koroğlu eposundan danışarkən onun şamançılığı qəhrəmanlığı ilə yanaşı götürülməlidir. Şaman-qəhrəman eposçuluq ənənəsində ən qədim süjet və əlaqələrdən sayılır. Həm ozan, həm də aşıq ifaçılığında da Koroğlunun şaman və qəhrəman olması haqqında nəğmələr vardır.

Korluq şamanizmdə, həm də kor oğlu olmaq xüsusiyyətində eyni məkanı, mifoloji məkanı göstərir. Ən qədim şaman nəğmələrində də şamanın o dünya il bağlılığı məsələsinə toxunulur. Şaman nəğmələri ilə Koroğlu nəğmələri arasında da bir yaxınlıq tapmaq mümkündür. Qafqazda yaşayan xalqların şifahi yaradıcılığında da «gözü kor edilmiş, yaxud ovda bir gözü çıxarılmış «qəhrəmanın oğlu» haqqındakı rəvayətləri» (5, s.457) bu yaxınlığın əlaməti kimi qiymətləndirmək olar. Şaman nəğmələrindəki oxşar fraqmentləri Qafqaz xalqlarının şifahi yaradıcılığında genişlənmiş, bir qədər də dəyişmiş şəkildə izləmək mümkündür. Prof. A.Nəbiyev yazır ki, Qafqaz və Şimali Qafqaz eposu üçün ənənəvi olan həmin süjeti yeni şəkildə işləyib Alı kişinin gözlərinin çıxarılması və qatildən intiqam ideyası əsasında yeni bir dastan süjeti yaratdılar (5, s.452). Onu da deyək ki, bu süjet Qafqaz xalqlarının mentalitetinə çox yaxındır. Onlarda düşməndən intiqam almaq, qanı yerdə qoymamaq ənənəvi haldır. Ona görə də Alı kişinin gözlərinin çıxarılması süjeti və qisasın alınması bu xalqlar arasında milli adətlərə uyğun gəlmiş,

Qafqazın dastan yaradıcılığına tam uyğunlaşmışdır. Əlavə olaraq yeni mühitdə Koroğlu süjetləri yeni motivlərlə zənginləşmiş, nəğmələrlə dastanın repertuarını genişləndirmişdir. Məsələn, övladsızlıq motivini götürək. Bu motiv Azərbaycan şiahi xalq ədəbiyyatında geniş yayılmış motivdir. Bu motivdən dastanlarda da istifadə olunur. Epik ənənədə də bu motivdən istifadə olunması dastan yaradıcılığına uyğundur. «Koroğlu» eposunda da bu motivi Koroğlunun sonsuzluğu timsalında görürük. Hətta eposda Koroğlunun övladsızlığı onun üç gün dağda mansırada qalması ilə izah olunur. Ozan bu motivin həll olunma yolunu övladlığa qəbul etmək yolu ilə həll etmişdir. Eposda da Cününun Eyvazı bir məclisdə görməsi, bəənməsi, Koroğluya xəbər verməsi, sonda Koroğlunun və Nigarın Eyvazı övladlığa götürməsi milli adət-ənənəyə uyğun olaraq başa çatdırılmışdır (Eyvazın Nigarın can köynəyindən keçirilməsi yolu ilə). Təbii ki, bu proses eposda xüsusi nəğmə ilə müşayiət olunmuşdur. Məsələn:

Eyvazım bənzər laçına,
Sonalar heyran saçına.
Verməram Çinə, Maçına,
Eyvazı pişvaz eləyin! (1, s.130)

Eposda övladsızlıq əsas motivlərdən biridir. Bu motivin şərtlərinin yerinə yetirilməsi üçün dastançı Koroğlunu çətin sınaqlardan keçirir. Koroğlunun təkcə Ərəb Reyhanla qarşılaşma səhnəsini yada salmaq kifayətdir. Deməli, bu məna anlaşılır ki, hər bir nəğmənin əmələ gəlməsində epik ənənəyə uyğun olaraq müəyyən motiv iştirak edir. Bu motivlərin nəğmə strukturunda yer alması üçün hökmən konkret rəvayət tipindən istifadə olunur. rəvayətin formasından asılı olaraq, yaxud bir neçə rəvayətin ardıcıl olaraq süjetə çevrilməsi nəticəsində nəğmələr də poetik ənənədə süjetin bədii cəhətdən qiymətləndirilməsi yolu ilə eposun nəzm hissəsinə çevrilir. Bu gün dastanın strukturuna əsasən xalq arasından toplanmış rəvayətlərin hansının əsasında eposun formalaşmasını, hansının eposun təsiri ilə yarandığını söyləmək çətindir. Poetik ənənədə motiv yaradıcılığından sonra nəğmələrin yaranmasında rəvayətlərin xüsusi rolu vardır. Hər

şeydən əvvəl onu deyək ki, rəvayətin əsasını təşkil edən motiv nəğmədə də öz əksini tapır. Koroğlu rəvayətlərinin məzmunundan asılı olaraq bu nəğmələrin tipi də bir-birindən fərqlənir. Məsələn, Koroğlunun Misri qılıncı ilə bağlı rəvayət və bu haqda nəğmə öz struktur və mənasına görə başqa nəğmələrdən mütləq seçilməlidir. Deməli, nəğmə yaradıcılığını iki qrupa ayırmaq olar: birincisi, xüsusiləşmiş, müəyyən hiss-həyəcanla ifadə olunmuş, şeir şəklində deyilmiş nəğmə tipi; ikincisi, daha geniş mənaya malik, qəbilənin tayfanın adət-ənənələrini, qəhrəmanlıq həyatını əks etdirən, geniş məzmunlu epik nəğmə. Bu da ilkin eposların şeirlə ifadə olunan bədii forması kimi düşünülə bilər.

«Koroğlu» eposunun quruluşuna əsasən, Koroğlu obrazının yaranmasının həm mifoloji, həm də tarixi yolunu izləmək mümkündür. Birinci yol – mifoloji yol yuxarıda göstərdiyimiz obrazın etnomifoloji qaynaqlarından irəli gəlir, ikinci yol isə tarixin hansı kəsimindəsə xalq arasında məşhurlaşmış xəyali obrazın təsiri ilə bu adı özünə qəbul etmiş şəxsiyyətin qəhrəmanlığının xalq yaddaşında qoşalaşması və ona Koroğlu adının verilməsi yolu ilədir (şəxsiyyət özü də Koroğlu adını seçə bilər). Eposda da gördüyümüz Koroğlu fikrimizcə, xalq yaddaşında obrazlaşmış mifik qəhrəmanla tarixi qəhrəmanın cizgilərinin birləşməsi nəticəsində yaranmışdır. Burada xüsusilə Cəlali hərəkatını misal göstərmək olar. Mifoloji qəhrəmanın iştirak etdiyi birinci qolu ilk epik nəğmə və süjetlərdən hesab etmək olar. Bu qolun müxtəlif variantlarının bir-birinə uyğun gəlməsi də onun ilkin nəğmə və süjet olmasını şərtləndirir. Bu variantlarda Alı kişi ilə bağlı süjet eyni olsa da, obrazın adı bəzi variantlarda dəyişdirilib, öz mifoloji kökündən bir qədər uzaqlaşdırılmış, Alı adı Mirzə Sərraf adı ilə əvəzlənmişdir. Mirzə Sərraf şəxsiyyətinin tarixi olub-olmaması naməlumdur. Hər halda bu adda ata baxanın hansı şahın dövründə yaşaması, xalq arasında məşhurluğu onu Alı kişi obrazı ilə eynilşdirməyə səbəb olmuşdur. «Alı kişi» qolu ilə «Mirzə Sərraf» arasında da bəzi fərqlər mətnin ixtisarına görə alınmışdır. «Alı kişi» qolunda təhkiyə tam mifoloji düşüncə məhsulu kimi nəzər-diqqəti cəlb edir. Mirzə Sərrafın adı ilə bağlı qolda isə uydurulmuş və ya başqa tarixi şəxsiyyətlə mifoloji dünyagörüş alınmadığından burada mifoloji mətn ixti-

sar yolu ilə qısaldılmışdr. «Alı kişi» qolu vahid bir süjetdən və iki şeirdən ibarətdir (1, s.7 - 19 və iki nəğmə (3, s.15 - 17). M.H.Təhmasibin tərtib etdiyi «Koroğlu»dakı «Alı kişi» qolunda nəğmə yoxdur. Ancaq «Koroğlu»nun Paris nüsxəsində iki şeir verilmişdir. Aşıq Əsəd variantında isə Alı kişi Rövşəni bir ləzgi ustanın yanına qılınc qayıtdırmağa göndərir. Bu münasibətlə qolda Koroğlunun dilindən üç bəndlik qoşma-nəğmə verilir. Bu qılıncla Rövşən atasının intiqamını almağa gedir.

Kamil usta, budu sözümün sağı,
Qılınc boydan bir az məhdəhal ola.
Elə qayır düşman onu duymasın
Qorxuram yolumuz alhaal ola. (1, s.410)

«Alı kişi» süjetinin qədim süjet olması orada iştirak edən mifoloji ünsürlərdən də aydın olur. «Koroğlu»nun Bakı əlyazmalarında bu süjetə oxşar bir süjet verilmişdir. Orada Alı adı Übeyd adı ilə əvəzlənir. Übeyd mehtər, üsyançı yox, çoban kişi təsvir olunur. O, şahın atlarını güdür. Übeyd şahın sevimlisidir. «Alı kişi» süjetindən fərqli olaraq, burada dənizdən çıxan su atından bir qulan doğulur. O, şahın əmri ilə ilxıdan 8 adi at qulanı və bir dənə də dəniz atından doğulmuş qulanı şahın hüzuruna aparır. Qulan çirkin olduğuna görə şahın xoşuna gəlmir və buna görə onun gözləri çıxarılır. Şah həmin çirkin qulanı ona bağışlayır. Süjetin ardı «Alı kişi» süjetinə oxşardır. Burada da Qıratı qaranlıq bir yerdə bəsləyirlər, gün işığından qoruyurlar. Bir fərq ondan ibarətdir ki, Alı kişi və Rövşən qisas alırlarsa, burada heç bir qisas söhbəti yoxdur. Onlar sadəcə olaraq şahın əlindən qaçırlar. Burada da Übeyd Alı kişi kimi münəccimlik edir. O bilir ki, şah onların ardınca 7 atlı göndərəcək. Rövşən bu atlıları yarı yolda qoyur Bu qolun «Alı kişi» qolundan digər mühüm fərqindən biri də budur ki, Koroğlu yemək dalınca gedərkən 8-ci atlı Übeydi öldürür. Koroğlu ondan atasının qisasını alır. Buraya qədər olan hissəni (4, s.35 -37) ilk süjetlərdən biri hesab etmək olar. Bu hissədə də mifoloji ünsürlər vardır. Bu hissə nağıllardan gələn motivlərlə zəngindir. «Alı kişi» qolundan fərqli olaraq onların ardınca düşən atlıların sayı dəqiq göstərilir.

8 at Übeydin şaha verdiyi atdır. 8 atlı şahın da daxil olduğu xaotik məkandan çıxmışlar, Übeyd, Koroğlu və Qırat isə başqa bir məkana yetişmək istəyirlər. Bu süjeti qədim hesab etmək olar. Güman etmək olar ki, «Alı kişi» qolu və «Paris nüsxəsi»ndəki birinci məclis rəvayət formasında olan bu süjetdən yararlanmışdır. Qədim süjetin mahiyyətində duran bu əhvalatların kosmoqonik eposun özəyini təşkil etməsini düşünürük. Arxetipdə göstərilən Übeyd, şah, dniz, 8 qulan, dəniz atı, doğulan bir qulan, 8 atlı sonradan kosmik məkana yönləndirilmişdir. Bu hissə nə vaxtsa rəvayət şəklində olmuş, sonradan ilkin süjetin əsasını təşkil etmişdir. Görünür, dastançı «Koroğlu» eposunu qoşarkən bu rəvayətdən geniş istifadə etmiş, oradakı motivləri genişləndirərək «Alı kişi» qolunda vermişdir. Folklorşünaslıqda da «Alı kişi» qolunun ən arxaik qol olduğu, mifoloji əsaslara söykəndiyi söylənilir. Bu mətndə isə hadisələrin İran torpağında baş verdiyi məlum olur.

«Bakı əlyazmaları»nın D-381 şifrəsi altındakı variantda da bu süjetdən istifadə olunmuşdur. Lakin süjetin əvvəli yarımçıqdır. Qıratın dəniz ayğırından törəməsi burada göstərilmir, sadəcə olaraq Bolı bəyin sifarişi ilə sais (mehtər) at seçir. Sevdiyi atlardan heç biri Sünbüllü binardan keçmir, təkcə arıq, sısqa at bulağı sıçrayıb keçir. At qonağın və Bolı bəyin xoşuna gəlmir, buna görə saisin gözləri çıxarılır, seçdiyi atın üzərinə mindirilib evinə yola salınır. Bu süjetdə at bir il bəslənilir, palçıq içərisində necə getdiyi yoxlanılır, ikinci il at palçıq içindən keçəndə heç bir palçıq dənəsi bədəninə toxunur. Beləliklə, at sınaqdan çıxarıldıqdan sonra saisin oğlu Bolı bəyindən qisas almağa gedir (4, s.43 – 45).

Qeyd etdiyimiz bu dörd süjet eyni məzmunda olub «Koroğlu» dastanının ilk qolunun əsasını təşkil edir. Qeyd etdiyimiz süjetlərdən yalnız birində – Paris nüsxəsində rast gəlinən nəğmə ilkin hesab oluna bilər. Bu variantdakı nəğmənin Salman Mümtaz tərəfindən toplanmış nəğməyə uyğun gəlməsi də bu fikri söyləməyə əsas verir (4, s.79). Bu nəğmə ilə süjet bir-birini tamamlayır.

«Koroğlu» eposundakı qolların hansının əvvəl, hansının sonra qoşulması haqqında dəqiq fikir söyləmək çətindir. Bu fik-

ri müxtəlif «Koroğlu» variantlarında rast gəldiyimiz bir-birindən fərqli düzümə görə söyləyirik. Lakin müəyyən qədər «Koroğlu»nun Bakı əlyazmalarındakı sıralanmaya uyğun olaraq və M.H.Təhmasib nəşrini əsas tutaraq Koroğlunun Dəli Həsənlə görüşməsi ilə bağlı süjeti ikinci qol hesab etmək olar.

## ƏDƏBİYYAT

1. Koroğlu. Bakı, «Çıraq» nəşriyyatı. 2006, 544 s.
2. Koroğlu, Bakı, «Səda» nəşriyyatı, 2005, 751 s.
3. Koroğlu. Paris nüsxəsi. Bakı: Şərq-Qərb, 2005, 224 s.
4. Koroğlu (Bakı əlyazmaları). Bakı, Nurlan, 2010, 88 s.
5. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. 2-ci hissə. Bakı, Elm, 2006, 648 s.

## SUMMARY

## ANCIENT PLOTS OF «KOROGLU» EPOS

The article is dedicated to the primary plot and peculiarities of the creation of songs which is the important problem of the epos science. The author comparing the different variants and ancient manuscripts of the «Koroglu» epos concludes that the primary plot in the ancient manuscript forms the cosmogonic basis of the «Ali kishi» chapter. The song in the Paris copy of «Koroglu» is the poetic example.

# РЕЗЮМЕ

## ДРЕВНИЕ СЮЖЕТЫ ЭПОСА «КЁР-ОГЛЫ»

Статья посвящена первичному сюжету и особенностям формирования песен являющимися важной проблемой эпосоведении. Автор сравнивая разные варианты и древние рукописи эпоса «Кёр-оглы» приходит к мнению, что первичный сюжет в древней рукописи составляет космогоническую основу в главе «Алы киши». Песня же в парижской копии «Кёр-оглы» является поэтическим примером.